# BAKI BİZNES UNİVERSİTETİ

# BEYNƏLMİLƏLLƏŞMƏ SİYASƏTİ

# 2019-2023

Bakı Biznes Universitetinin Elmi Şurasının 27 dekabr 2018-ci il tarixli iclasının qərarına əsasən təsdiq olunmuş Strateji inkişaf plana uyğun olaraq Bakı Biznes Universitetinin Beynəlmiləlləşmə siyasəti təsdiqlənmişdir.

BBU-nun Beynəlmiləlləşmə siyasəti Universitetin Strateji İnkişaf Planının 6-cı istiqamətinə uyğun olaraq aşağıda qeyd olunan sahələri özündə ehtiva edir.

Bakı Biznes Universitetinin beynəlmiləlləşmə siyasəti tələbələri, akademik və inzibati heyəti beynəlxalq mühitə hazırlamaq, akademik azadlığı, tolerantlığı, müxtəlifliyi, akademik və şəxsi inkişafı hər zaman ön planda tutaraq birlikdə öyrənmə, bilik istehsal etmə, əldə edilən bilikləri bölüşmək, cəmiyyətə dəyər qatmaq və ümumbəşəri dəyərləri özündə birləşdirmək məqsədi daşıyır.

**Beynəlmilləşmə siyasətinin əsas istiqamətləri**

- **Akademik mükəmməllik:** təhsil proqramlarını beynəlxalq standartlara uyğunlaşdırmaqla milli və beynəlxalq səviyyədə rəqabət apara biləcək tələbə və məzunlar yetişdirmək;
- **Beynəlxalq tərəfdaşlığın inkişafı:** mübadilə, əməkdaşlıq və ikili diplom imkanlarını asanlaşdırmaq üçün beynəlxalq universitetlər və təşkilatlarla sıx tərəfdaşlıq şəbəkəsi yaratmaq və genişləndirmək;
- **Tələbələr üçün beynəlxalq bacarıqlar və imkanlar:** tələbələrin qlobal səriştələrini inkişaf etdirmək və işə qəbul imkanlarını artırmaq üçün xaricdə təhsil almaq, təcrübə əldə etmək və beynəlxalq konfranslarda iştirak da daxil olmaqla onları beynəlxalq təcrübələrlə təmin etmək;
- **Fakültənin inkişafı və beynəlxalq iştirak:** mübadilə proqramları, tədqiqat əməkdaşlıqları və beynəlxalq forum və konfranslarda iştirak etməklə, beynəlxalq təcrübə və tanınma əldə etməkdə fakültəyə dəstək olmaq;
- **Tələbə mübadiləsi:** xaricdə təhsil, mübadilə proqramları və beynəlxalq təcrübələr daxil olmaqla, tələbə mübadiləsi proqramlarının əhatə dairəsini və keyfiyyətini artırmaq;
- **Akademik və inzibati heyətin mübadiləsi:** akademik və inzibati heyətin mübadiləsini, məzuniyyətləri və xaricdə peşəkar inkişaf imkanlarını asanlaşdıran layihələrdə iştirak etmək, ikitərəfli və çoxtərəfli müqavilələr imzalamaq, beynəlxalq forumlarda iştirak etmək və professor-müəllim heyəti arasında qabaqcıl təcrübələrin mübadiləsini təmin etmək;
- **Mədəni və intellektual müxtəliflik:** milli, dini, irqi müxtəlifliyi təşviq edərək, müxtəlif mənşəli tələbələr və işçilərin iştirakı ilə zənginləşdirilmiş kampus mədəniyyətini inkişaf etdirmək.

**Əcnəbi tələbələrə münasibətdə beynəlmiləlləşmə siyasəti:**

Bakı Biznes Universitetinin əsas sahələrindən biri əcnəbi tələbələrlə bağlı beynəlmiləlləşmə siyasəti dilindən, dinindən, irqindən asılı olmadan bütün tələbələr üçün inklüziv, dəstəkləyici və zənginləşdirici mühit yaratmaqdır.

- **Qəbul:** əcnəbi tələbələr üçün şəffaf və ədalətli qəbul proseslərini həyata keçirmək;
- **Oriyentasiyam və inteqrasiya:** əcnəbi tələbələri BBU-nun akademik mədəniyyəti, Azərbaycan tarixi və yerli adət-ənənələri ilə tanış etmək üçün nəzərdə tutulmuş hərtərəfli oriyentasiya proqramları tərtib etmək və universitet mühitinə daha rahat inteqrasiyanı asanlaşdırmaq;

- **Dəstək xidmətləri:** viza yardımı, dil dəstəyi, yaşayış, məsləhət və mədəni uyğunlaşma ilə bağlı dəstək xidmətləri təklif etmək;
- **Akademik dəstək və dilin inkişafı:** əcnəbi tələbələrə tədris dillərində bacarıqlara nail olmaqda kömək etmək və onların akademik uğurlarını dəstəkləmək üçün xüsusi akademik dəstək xidmətləri və dil proqramları təklif etmək;
- **Təhlükəsizlik və rifah:** əcnəbi tələbələrin rifah və təhlükəsizlik problemlərini həll etmək üçün mütəmadi görüşlər keçirmək.

**Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti**

Bakı Biznes Universiteti beynəlxalq akademik heyətin universitetin tədris və tədqiqat fəaliyyətlərinin inkişafına göstərdiyi müsbət təsiri nəzərə alaraq nüfuzlu əcnəbi müəllim və tədqiqatçıları tədris və tədqiqata cəlb etməyə və onlardan töhfə götürməyə xüsusi diqqət yetirir.

**Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti**

Bakı Biznes Universiteti beynəlxalq tədqiqatçıların universitetin tədqiqat profilinin artırılmasında və qlobal bilik iqtisadiyyatına töhfə verməkdə oynadığı mühüm rolu qəbul edir. Beynəlxalq tədqiqatçılarla bağlı siyasət innovativ tədqiqatları stimullaşdıran və beynəlxalq əməkdaşlığı təşviq edən dinamik və dəstəkləyici mühitin yaradılmasına yönəlmişdir.

- Beynəlxalq universitetlər və tədqiqat təşkilatları ilə tərəfdaşlıqlar vasitəsilə beynəlxalq tədqiqat əməkdaşlığını təşviq etmək və asanlaşdırmaq;
- Birgə tədqiqat layihələrinin yazılması və ortaq elmi konfransların keçirilməsini təşviq etmək;
- İnnovasiya və əməkdaşlığı təşviq edərkən beynəlxalq tədqiqatçıların maraqlarını qoruyan əqli mülkiyyət hüquqları ilə bağlı aydın siyasət qəbul etmək;

**İkili diplom proqramları üçün siyasət çərçivəsi**

- İkili diplom proqramları üçün müvafiq əməkdaşlıq sazişləri imzalamaq və proqramların yerli və beynəlxalq qaydalara uyğun olan aydın hüquqi çərçivədə həyata keçirilməsini təmin etmək;
- Tələbələrin ikili diplom proqramlarında iştirakını təşviq etmək;
- İkili diplom proqramlarında tədrisin keyfiyyətinin yüksək olmasını nəzərə alaraq yüksək; ixtisaslı, peşəkar kadrları tədrisə cəlb etmək;
- Tələbələrin dil biliklərini inkişaf etdirmək;
- Beynəlxalq statuslu diplom təqdim etmək.

**Beynəlmiləlləşmənin əsas məqsədləri:**

1. **Beynəlxalq profilimizi və reputasiyamızı yüksəltmək:**
   - Yeni universitetlərlə Əməkdaşlığın qurulması ;
   - İkili diplom proqramlarının həyata keçirilməsi;
   - Beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi;
2. **Əcnəbi tələbələrin universitetə cəlb olunmasını təşviq etmək:**
   - Beynəlxalq Tələbə agentlikləri ilə müqavilələrin imzalanması;
   - Əcnəbi tələbələrin qəbulunun həyata keçirilməsi;
   - Əcnəbi tələbələrin hazırlıq kursunun təşkili və qəbulu prosesi;

**3. Beynəlxalq və yerli qrant layihələrində iştirak etmək:**

- Erasmus+ KA1 mübadilə proqramlarında  akademik və inzibati və tələbələrin iştirakının təmini;
- Xarici donorlar tərəfindən maliyyələşdirilən digər proqramlarda iştirak;
- Mövlanə proqramında iştirakın təmin edilməsi;

**4. Tədrisin keyfiyyətini beynəlxalq standartlara uyğunlaşdırmaq:**

- Proqramların beynəlxalq standartlara uyğunlaşdırılması;
- Akademik heyətə təlimlərin təşkili;
- Proqramlar üzrə müqayisəli təhlillərin aparılması və proqram komissiyasının təkmilləşdirilməsi;

**5. Beynəlxalq tədqiqat gücümüzü artırmaq:**

- Beynəlxalq konfransların həyata keçirilməsi;
- Beynəlxalq jurnallarda məqalələrin nəşr edilməsi;
- Ortaq tədqiqatların və məqalələrin nəşri;
- Beynəlxalq bazalarda məqalələrin çapı;

**6. Təhsilalanların və məzunların karyera inkişafını beynəlxalq standartlara uyğunlaşdırmaq:**

- Xarici universitetlərin və şirkətlərin bu sahədə olan təcrübəsindən effektiv istifadə imkanlarını ortaya çıxarmaq və tətbiq etmək;
- Təhsilalanların və məzunların hazırlıq səviyyəsinin əmək bazarının tələblərinə uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə tədbirlər  həyata keçirmək;
- Yerli və xarici şirkətlər haqqında məlumat bazası yaratmaq və məzunlarla bölüşmək;

**İstinadlar:**


1. Təhsil haqqında  Azərbaycan Respublikasının Qanunu- 19 iyun 2009-cu il № 833-IIIQ - https://e-qanun.az/framework/18343
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı - https://e-qanun.az/framework/29964
3. 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı-https://e-qanun.az/framework/1603
4. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 saylı Fərmanı əsasında təsdiq edilmişdir - https://e-qanun.az/framework/34254
5. Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin təşkili və planlaşdırılması haqqında Əsasnamə - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 6 noyabr tarixli 242 nömrəli Qərarı ilə təsdiq edilmişdir - https://frameworks.e-qanun.az/20/c_f_20842.html
6. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası - Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir -  https://president.az/az/articles/view/9779
7. Bakı Biznes Universitetinin Nizamnaməsi
8. https://files.eric.ed.gov/fulltext/EJ1136025.pdf
9. https://www.timeshighereducation.com/blog/international-strategy-universities-10-keys-success
10. https://www.iau-aiu.net/Internationalization